# Şəhid Qarayev Məhəmməd Mahir oğlu son mənzilə yola salınıb

12 may 2023-cü il tarixində Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində Qəbələ şəhər sakini, sərhəd qoşunlarının hərbi





qulluqçusu Qarayev Məhəmməd Mahir oğlu şəhidlik zirvəsinə ucalmışdır. Şəhid Məhəmməd Qarayevin nəşi dəfn olunmaq üçün doğulduğu Qəbələ şəhərinə gətirilmişdir. Şəhidlə vida mərasimində rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin rəhbərləri, Dövlət Sərhəd Xidmətinin, idarə, müəssisə və təşkilatların əməkdaşları, şəhidin ailə üzvləri, döyüş yoldaşları və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər. Şəhid dəfn edildikdən sonra məzarı üzərinə gül dəstələri qoyularaq ruhuna dualar oxunmuşdur. Məhəmməd Qarayevin nəşinin büküldüyü Azərbaycan Respublikasının üç rəngli bayrağı şəhidin atasına təhvil verilmişdir.

Başın sağ olsun vətən!

# Şəhid Niftalıyev Novruz Eldəniz oğlunun məzarı ziyarət edilmişdir

Qəbələ Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların



rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələri tərəfindən Nohurqışlaq kənd sakini şəhid Niftalıyev Novruz Eldəniz oğlunun məzarı ziyarət edilmiş, üzərinə gül dəstələri düzülmüş, xatirəsi anılaraq, ruhuna dualar oxunmuşdur. Şəhidin ailə üzvləri dövlət tərəfindən onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

# "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir!" mövzusunda konfrans

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi çərçivəsində Qəbələ Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir!" mövzusunda konfrans keçirilmişdir. Konfrans iştirakçıları öncə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etmiş, abidə önünə gül dəstələri düzərək dahi şəxsiyyətin xatirəsinə böyük hörmət və ehtiramlarını bildirmişlər. Milli Məclisin deputatı Aqiyə xanım Naxçıvanlının, Qəbələ Rayon İcra Hakimiyyətinin, idarə müəssisə və təşkilatların nümayəndələrinin, ziyalıların, ağsaqqalların və rayon ictimaiyyətinin iştirakı ilə keçirilən konfransda ilk olaraq Azərbaycanın Dövlət Himni səslənmiş, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad olunması uğrunda şəhadətə yüksəlmiş şəhidlərin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir. Tədbiri giriş sözü ilə açan Qəbələ Rayon İcra Hakimiyyətinin Başçısı Səbuhi Abdullayev konfrans iştirakçılarını salamlayaraq Dövlət müstəqilliyimizin möhkəmləndirilməsində misilsiz xidmətləri olmuş, xalqımızın xilaskarı, dahi lideri Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlərdən, iqtisadi islahatlardan, ideoloji prinsiplərdən danışmış, ümummilli liderin daxili və xarici siyasət kursu, dövlət quruculuğu konsepsiyasının Prezident İlham Əliyev tərəfindən bu gün də uğurla davam etdirildiyini və yeni çalarlarla zənginləşdirildiyini diqqətə çatdırmışdır. Milli Məclisin deputatı Aqiyə xanım Naxçıvanlı çıxış edərək, Azərbaycan xalqının son 34 illik tarixinin Heydər Əliyev şəxsiyyəti və onun ideyaları ilə bağlı olduğunu bildirib. Xüsusilə müstəqillik tarixinin bütün əlamətdar hadisələrinin müəllifinin ulu öndər olduğunu vurğulayıb. Ona





görə də dahi şəxsiyyətin irsinin qorunmasının və gələcək nəsillərə ərməğan edilməsinin vacibliyini qeyd etmişdir.Konfransda çıxış edənlər müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalan xalqın təkidi ilə Heydər Əliyevin hakimiyyətə qayıdışından, Yeni Azərbaycan Partiyasının yaranmasından, Heydər Əliyevin partiyaya sədr təyin edilməsindən, qısa müddətdə ictimai-siyasi sabitliyin formalaşmasından, atəşkəsin elan olunmasından danışmışlar.

# Rayon icra hakimiyyətində vətəndaş qəbulu



Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən növbəti dəfə vətəndaşların qəbulu keçirilib. Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, qazilərin də iştirak etdiyi qəbulda vətəndaşların müraciətləri və irəli sürdükləri təkliflər RİH başçısı tərəfindən dinlənilmiş, bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür.

# Rayon icra hakimiyyətində Şura iclası keçirilmişdir

Rayon icra hakimiyyətində növbəti şura iclası keçirilmişdir. İclasda RİH başçısı yanında Şuranın üzvləri, ərazi icra nümayəndələri, bələdiyyə sədrləri, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri iştirak etmişlər. Şura iclasını açan rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev 2023-cü ilin Heydər Əliyev ili elan edilməsi ilə əlaqədar rayon ərazisində görüləcək işlər haqqında hazırlanmış Tədbirlər Planını təhlil etmiş, yerlərdə keçirilən səyyar qəbullarda





qaldırılan məsələlərin kənd inzibati ərazi nümayəndəliklərində icrası vəziyyəti barədə və rayonda cari ilin taxıl biçini kompaniyasının mütəşəkkil keçirilməsi və optimal müddətdə başa çatdırılması, həmçinin biçin zamanı yanğın təhlükəsizliyi tədbirlərinin görülməsi barədə müvafiq tövsiyyələr vermiş və qarşıda duran məsələləri müzakirə etmişdir.

**Fotolar Səhrab Umuyevindir.**